# "Cənub Qaz Dəhlizi"nin icrasına heç nə mane ola bilməz"

## Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən III iclasında çıxış edib

**Dünən Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının III iclası öz işinə başlayıb. Tədbirə Prezident İlham Əliyev də qatılıb.**



Qeyd edək ki, iclasda ABŞ-ı dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqan, Böyük Britaniyanı baş nazirin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolson, Avropa İttifaqını (Aİ) isə Avropa Komissiyasının vitse-prezidenti Maroş Şevçoviç təmsil edib.

"Cənub Qaz Dəhlizi" layihəsinə cəlb edilmiş ölkələrin nazirlərindən - Türkiyənin enerji və təbii sərvətlər naziri Berat Albayrak, Gürcüstan baş nazirinin müavini, energetika naziri Kaxa Kaladze, İtaliyanın iqtisadi inkişaf naziri Karlo Kalenda, Yunanıstanın ətraf mühit və energetika naziri Georgios Statakis, Albaniyanın energetika və sənaye nazirinin müavini İlir Bejtja, Bolqarıstanın energetika naziri Nikolay Pavlov, eləcə də Monteneqronun iqtisadiyyat naziri Draqitsa Sekuliç, Xorvatiyanın ətraf mühitin mühafizəsi və enerji naziri Slaven Dobroviç, Bosniya və Herseqovinadan isə xarici ticarət naziri Mirko Saroviç tədbirə qatılıblar. Serbiya, Rumıniya, Macarıstan, Çexiya, Polşa və Ukraynanın nümayəndələri qismində bu ölkələrin Azərbaycandakı səfirləri müəyyənləşib.

Beynəlxalq maliyyə qurumlarından isə tədbirə Dünya Bankının enerji və hasilat üzrə baş direktoru Rikardo Puliti, Avropa İnvestisiya Bankının Mərkəzi və Cənubi Avropa şöbəsinin müdiri Flavia Palanzanın rəhbərlik etdiyi nümayəndə heyəti qatılıb. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) enerji və təbii sərvətlər üzrə direktoru Nandita Parşad, həmçinin bankın Rusiya, Qafqaz, Mərkəzi Asiya üzrə direktoru Aida Sitdikova, Cənubi Qafqaz, Moldova və Belarus üzrə direktoru Bruno Balvanera, AYİB-in Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri İvana Duarte, bankın təbii resurslar departamentinin rəhbəri Natalya Lacorzanadan ibarət geniş tərkibli nümayəndə heyəti, Almaniya İnkişaf Bankının (KfW) İdarə Heyətinin üzvü Markus Scheer, bankın neft, qaz və neft-kimya üzrə vitse-prezidenti Maykl Veytz də Məşvərət Şurasının üçüncü iclasının iştirakçıları sırasındadır. Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) Qafqaz üzrə regional direktoru Jan van Bilsen, Balkanlar üzrə regional direktoru Tomas Lubek, Azərbaycan üzrə nümayəndəsi Aliyə Əzimova və Asiya İnkişaf Bankının Azərbaycan nümayəndəliyinin rəhbəri Nəriman Mannapbekov da toplantıda iştirak edib.

Bununla yanaşı, TANAP-ın baş direktoru Saltuk Düzyol, TAP-ın icraçı direktoru Yan Bradşounun rəhbərlik etdiyi nümayəndə heyəti, İAP üzrə təmsilçi Vedran Spehar, eləcə də başqa regional prezident Qordon Birrell olmaqla BP şirkəti geniş tərkibdə yer alıb. Toplantıda SNAM, TOTAL şirkətləri də iştirak ediblər.

Ölkə başçısı tədbirdə nitq söyləyib. Prezident bildirib ki, 2011-ci ildə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə təməli qoyulan Trans-Anadolu Qaz Boru Xətti "Cənub Qaz Dəhlizi" layihəsinin dönüş nöqtəsi olub. Prezident qeyd edib ki, "Cənub Qaz Dəhlizi"nin əsas parçası olan TANAP layihəsi çərçivəsində işlərin 65%-i, "Cənub Qafqaz Boru Xətti" layihəsinin 80%-i, Trans-Adriatik Qaz Boru Xətti (TAP) layihəsinin 35%-i tamamlanıb. Ölkə başçısı əlavə edib ki, "Şahdəniz" yatağının 90%-i işlənilib: "2011-ci ildə Rəcəb Tayyib Ərdoğanla TANAP-a imza atdıq. İstanbuldakı imzalanma mərasimi dönüş nöqtəsi oldu. Bundan sonra digər anlaşmalar imzalandı. TANAP anlaşması olmasaydı, bu layihə reallaşmazdı".

Ölkə başçısı onu da qeyd edib ki, TANAP layihəsinin icrası zamanı optimallaşdırma işləri aparılıb və layihənin xərcləri azaldılıb: "Cənub Qaz Dəhlizi" layihəsinin icrasına heç nə mane ola bilməz. Layihənin icrasında gecikmələrə yol verilməməlidir. Ekoloji problemləri bəhanə edənlər ola bilər. Layihə çərçivəsində ekoloji tələblərə tam riayət olunur. Nəticənin müsbət olacağına əminəm. Bir daha qeyd edirəm ki, layihə vaxtında icra olunacaq. Bu tədbirdə müxtəlif ölkələrdən mötəbər nümayəndələr iştirak edir. Azərbaycan Avropa Komissiyası ilə bu mühüm layihələrin həyata keçirilməsində sıx əməkdaşlıq qurub. Biz unikal və nümunəvi beynəlxalq əməkdaşlıq formatını yarada bildik".

Prezident qeyd edib ki, bu cür toplantılar layihənin vaxtında və keyfiyyətli icra olunmasında xüsusi rol oynayır: "Ötənilki görüşdən sonra bir çox irəliləyiş olub. Azərbaycan "Abşeron" qaz yatağının da işlənilməsinə başlayıb. Bu, Azərbaycanın qaz potensialının yalnız "Şahdəniz"lə məhdudlaşmadığını göstərir. 21-ci əsrin layihəsi olan "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsində beynəlxalq maliyyə qurumlarının fəaliyyətini qeyd etmək istəyirəm. Avropa maliyyə təşkilatlarının da layihənin icra olunmasında yaxından iştirak etməsi əhəmiyyətli olacaq".

Avropa Komissiyasının enerji ittifaqı üzrə vitse-prezidenti Maroş Şevçoviç "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa İttifaqı üçün strateji əhəmiyyət daşıyıdığını deyib: "Onun Avropa üçün nə dərəcədə vacib olduğunu hamımız anlayırıq. Qitənin gələcəyi üçün strateji əhəmiyyət daşıyan bu layihəyə Avropa maliyyə təşkilatlarının da diqqət göstərməsi vacibdir". M.Şevçoviç layihənin vaxtında icra olunacağına əminliyini ifadə edib.

Vitse-prezident üçüncü dəfə bu toplantıya ev sahibliyi edən Azərbaycana təşəkkür edərək ötənilki görüşdən sonra layihə üzrə böyük irəliləyişlərin olduğunu söyləyib. O, prezident İlham Əliyevin Brüsselə son səfərinin əhəmiyyətli olduğunu, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı nəzərdə tutan çərçivə sazişinin imzalandığını, enerji təhlükəsizliyi ilə bağlı səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırıb.